Nəriman ƏBDÜLRƏHMANLI

# YALQIZ

*(roman-assosiasiya)*



QANUN NƏŞRİYYATI

**Nəriman Əbdülrəhmanlı. YALQIZ.** *Roman-assosiasiya.*

Janr: psixoloji triller
Yaş qrupu: 16+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 392

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Rəyçi: | Əsgər RƏSULOV, |
| | *Filologiya elmləri doktoru, professor* |
| Redaktor: | Bədirxan ƏHMƏDLİ, |
| | *Filologiya elmləri doktoru, professor* |
| Mətn dizaynı: | Rahilə Şamilqızı |
| Qapaq dizaynı: | Rövşən Abbasov |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-15-039-1

© Qanun Nəşriyyatı, 2026
© Nəriman Əbdülrəhmanlı, 2026

Müstəqillik dövrü Azərbaycan nəsrinin ən yaxşı nümunələrindən biri olan, assosiasiyalar üzərində qurulmuş “Yalqız” romanı çoxqatlı məzmuna malik olmaqla yanaşı, özünəməxsus təhkiyəsi, polifonikliyi ilə də seçilir. Müəllif assosiasiyalar vasitəsi ilə qəhrəmanının və bir fərdi olduğu cəmiyyətin ayrı-ayrı problemləri ilə bağlı düşüncələrini *(real və irreal)* özünəməxsus şəkildə ümumiləşdirməsinə imkan yaradır.

Bu roman uğursuzluqlara düçar olan, cəmiyyət tərəfindən haqqı tapdanan, bəxti gətirməyən, bütün bunlar qarşısında tənhalaşan, öz daxilində başqaları, həm də öz-özüylə hesablaşan, həyatla ölüm arasında çarpışan insanın yaşantılarıdır.

***...O, çox sakit və qapalı həyat sürürdü, yataq otaqlarımız yanaşı olmasaydı, heç pilləkəndə və dəhlizdə də rastlaşmazdıq, çünki o, kifayət qədər ünsiyyətcil deyildi, hədsiz, ağlagəlməz dərəcədə adamayovuşmaz idi, daha doğrusu, bəzən özünü adlandırdığı kimi, yad, vəhşi Yalquzağa oxşayırdı, eyni zamanda da yaşadığım dünyadan daha artıq başqa bir aləmə məxsus olan çəkingən, hətta çox çəkingən varlıq idi...***

***Herman Hesse,***
*"Yalquzaq"*





# I

...dedi, *gəlməyinə xoş gəlibsən, həmi*şə g*əlib-getdiyin yer deyilmi, amma belə şey vardısa, gərək qabaqcadan zəng eləyəydin, ona görə ki, mən sadəcə burda olmaya bilərdim, adamın o qədər dərdi-azarı var, lap adını da yadından çıxar*ır; ya da s*ənin istədiyini vermək imkanım olmazdı,* bütün bunları da əyilib yazı masasının siyirmələrini çəkə-çəkə, o siyirmələrdəki kağızları qurdalaya-qurdalaya deyirdi, elə bil, mənim istədiyimi cibindən yox, o kağız-kuğazın arasından çıxarıb verəcəkdi, ya da axtarıb-axtarıb, üz-gözündə həmin məhrəmanə ifadə yazıq-yazıq gülümsəyəcəkdi: *yoxdu, vallah, taxsır* özünd*ədi, qabaqcadan desəydin, təl-tül eləyib, bir şey düzəldərdim, niyə saldat kimi ayaq üstdə durubsan, hələ otur görək, bəlkə, Allah üzümüzə baxdı, gözləmədiyimiz yerdən bir qapı açıldı;* amma dilinə tamam ayrı söz gətirdi,  dedi, *hərdən fikirlə*ş*irəm, kaş, sənin yerinə olaydım, kimsənin dərdini* çək*məyəydim,* o sözləri deyəndə də buxağı əsdi, alnına bir azca tər gəldi, gözləri nəmləndi, siyirməni örtüb, əlini göbəyinin üstünə qoydu, qəfildən hıqqıldaya-hıqqıldaya güldü, son-

ra davam elədi, *bir anekdot var, eşidibsənmi, bilmirəm, o gün danışıblar, gülməkdən qarnımda ət qalmayıb,* eləcə uğuna-uğuna əlini yellədi, dedi, *otur... otur, sən canın, danışım, sənin də eynin açılsın, yoxsa rahat ola bilməyəcəm;* bilmirəm, yanımı stula qoyduğumu gördü ya yox, çünki artıq göz qapaqları örtülmüşdü, içalatından mırıltıya, xırıltıya, bəlkə də hıçqırtıya oxşayan səs çıxırdı, baxdım-baxdım, qəfildən ürəyim ağzıma gəldi, öz-özümə dedim, birdən tutması tutar, arada peşmanlıq olar, cavan vaxtlarımızda başıma o qədər belə hadisə gəlmişdi, sonralar bu cür hala düşəndə, əməlli-başlı qorxurdum; amma yox, qardaşım güldü, güldü, sonra cibindən iri yaylığını çıxarıb, gözlərinin yaşını, ağzının suyunu sildi, dərindən içini çəkib, sözünə davam elədi: *hə,* deyir, *biri uzaq yerə qazanca gedibmiş, külfəti də umudlu olur ki, kişi qazanıb, puldan-paradan göndərəcək, beləcə, həftələr keçir, aylar dolanır, il başa çatır, arvad-uşağın gözü yolda qalır, bundan səs çıxmır ki, çıxmır, axırda arvadı qapıdakı olan-qalan qısır inəyi satıb, pulunu qardaşına verir,* deyir, *get gör, yolu bəri düşməyən harda qaldı, nəylə məşğuldu; qardaşı da gedir, uzun həkətdən sonra tapır, nolasıdı, görüşüb-öpüşürlər, yeyib-içirlər, bir-iki gün də keçir, qayıtmaq vaxtı çatanda qazanca gedən ölmüş cavab gözləyən qaynına deyir, bacına çatdır ki, birtəhər orda başlarını saxlasınlar, o ki, qaldı mənə, o başı yerə soxaram ki, özünü dolandıra bilməsin...*

Burda təzədən uğundu, əvvəl bir balaca titrədi, sonra nehrə kimi çalxalanmağa başladı, yenə ürəyim ağzı-

ma gəldi, amma şükür, yenə hər şey yaxşı qurtardı, dəsmalını çıxarıb bir də gözlərinin yaşını, ağzının suyunu sildi, ləhləyə-ləhləyə bir balaca özünə gəldi; ardınca sözünü tamamladı, dedi, *ağıllı adammış, yoxsa mənim kimi, Allaha and olsun, evə gedəndə, canımı qoymağa yer gəzirəm, hamı deyir, ver: işıq pulu, qaz pulu, su pulu, kanalizasiya pulu... üstəlik, birinin ad günüdü, o birinin müəlliminin atası ölüb, üçüncüsünün könlünə təzə cib telefonu düşüb, daha fikirləşmirlər ki, mən bədbəxt oğlu bu qədər pulu hardan almalıyam?!;* burda qəfildən, elə bil, ayıldı, məni indicə görürmüş kimi, diqqətlə üzümə baxdı, sözünün yönümünü dəyişdi, dedi, *yaxşı, de görüm, özün necəsən, gözümə birtəhər dəyirsən, xəstələnib-eləməmisən ki...,* mən də cavabını birbaşa vermədim, dedim, *yaxşı hiss eləmirəm, havalar bulandımı, oynaqlarımın zoqqultusu da başlayır, həm də özümü hardasa soyuğa vermişəm, beynim-başım tutulub;* ona görə bu cür ətraflı danışdım ki, fikirləşdim, bəlkə, yanına elə-belə, kef ucundan gəlmədiyimi başa düşsün, dərk eləsin ki, həkimə gedə bilərəm, dərman almağa ehtiyacım olar, amma qardaşım, bütün bunların üstündən keçib, dədə-baba məsləhəti verdi, dedi, *get, gir yorğana, bir-iki stəkan mürəbbəli çay iç, başını bürü, yat, tərləsən, açılacaqsan,* üstəlik, başqa sözlər də əlavə elədi, dedi, *neynim, ayrı vaxt olsaydı, özümüzü verərdik xudmani yerlərdən birinə, saunadan-zaddan təşkil eləyərdik, ancaq özün bilirsən də, elə vaxtdı, idarəni başsız qoyub çıxa bilmərəm, gələn-gedən olur, işi düşən olur, Allah qoysa, vaxt tapıb, başımızı açarıq;*

arada ürəyim bulandı, öyümək istədim, alnımı soyuq tər basdı, hətta saçımın içində də tər damcılarının üzə çıxdığını dərimlə hiss elədim, bu dəfə dəsmalla alnımı, boyun-boğazımın tərini silmək növbəsi mənə çatdı; daha çox gəldiyim mətləbin nəylə qurtaracağına işarə eləyə-eləyə verdiyi məsləhətlə razılaşdım, dedim, *gərək elə eləyəm, deyəsən, iki-üç gün evdən eşiyə çıxa bilməyəcəm, amma yaxşı oldu, bir az əlimdə işim var, gərək onu bitirəm,* amma bu eyhamım ona çatmadı, yoxsa özünümü elə göstərdi, bilmirəm, tamam başqa şeydən danışdı, dedi, *katibə ölmüş yenə aradan çıxıb, yoxsa sənə çay verərdim burda, bir az canın qızışardı;* altdan-altdan baxırdım, hərdən əlini cibinin üstünə qoyur, elə bil, ürəyində nəyisə götür-qoy eləyir, amma bir qərara gələ bilmirdi ki, bilmirdi, qəfildən ona da yazığım gəldi, fikirləşdim, yəqin, çıxışdıra bilmir, böyük adamların problemləri də böyük olur, axı, yoxsa xasiyyətimə yaxşı bələddi, bilir ki, ömrümdə dədəmə də *(arada öz-özümə qeyd elədim ki, təkcə anamdan başqa, ömrüm boyu onun yanında xəcalətliyəm)* borclu qalmamışam, alacaqlarım var, əlimə düşən kimi, gətirib pulunu zor-xoş qaytaracam…

Qəfildən də dik qalxdım, dedim, *mən getdim,* bu sözümdən elə bil, diksindi, avazıdı, hətta özünü bir az itirən kimi də oldu, əlini yenə cibinin üstünə qoyub, çəkdi, bilmədi, harda gizlətsin, özü də yerindən azacıq qalxıb dilləndi, *hara gedirsən, bir dayan görək, nə fikirləşirik;* istədim, deyəm, bayaqdan elə hey fikirləşirsən, ucunu bir tərəfə çıxara bilmirsən, bundan sonra ney-